

***

Sanma ki, Allahdan uzaq
sürdüyüm ömürdü, ana.
...Çevrilməyə səmtim yoxdu-
hər üzüm kömürdü, ana.

...Bu cəhənnəmdə yandığım,
qışqırıb da oyandığım,
ölməyib sağ dayandığım
köz dolu qəbirdi, ana.

...Baş dumanlı, ürək çat-çat,
sevgim özümdən narahat!
Neynim ki, Şeytanla həyat
ortaqdı, əlbirdi, ana...

## Özümə sillətək çəkdiyim teleqram...

Ruhumun işgəncəsi qəlbdəki ilham və təb,
dünəni əsir düşən
"AZADLIĞAM", sabaham!
...Taleyin səhnəsində "dəvəsi ölmüş ərəb",
həm özümə bəndəyəm, həm özümə Allaham!

...Yuxu tək yatdı məni neçə çirkin, göyçəklər,
mənzili quyu olan şirin-şirin kələklər.
Yazmaqdan yoruldular çiynimdəki mələklər...
Savabları olmayan özüm boyda günaham.

Tülkülər ov axtardı, tutdular məni diri...
Ömür qara qarğadı, dimdiyində pendiri!
Çoxdan günahkar qulam boğazında kəndiri;
İpim cəllad əlində dar ağacında aham.

...Dünəni əsir düşən,
"AZADLIĞAM", sabaham,
savabları olmayan özüm boyda günaham,
ipim cəllad əlində dar ağacında aham,
həm özümə bəndəyəm, həm özümə Allaham!

## Uşaqlıq şəkillərim

Köhnə albomdakı uşaqlıq şəkillərim
"mənə məktub yaz",- deyir...
...Uşaqlıq dostlarımdan
yerimi soruşuram,
hərə bir söz deyir.
...Biri hər gün dillənir,
biri hərdən.
Biri göydən cavab verir, biri yerdən...
Birinin səsi gəlir bazardan,
biri mənə təsəlli verir məzardan.
Köhnə albomdakı uşaqlıq şəkillərim -
əllərimdə quruyan əklillərim.
...Uçub getdi nağıl kimi
əkil-bəkillərim.
Uşaqlıq şəkillərim "mənə məktub yaz",- deyir...
43 yaşlı ahıl İlkindən,
o ruh İlkindən, ağıl İlkindən,
bir lal dodağında nağıl İlkindən
məktub yaz!
...Məktub yaz mənə, deyir şəkillərim
İlkindən,
onun çəkə biləcəyi yükündən.
Dilə gəlir şəkillər :
- Sən mənim sirrimsən, İlkin,
ayaq qoyduğun yerlərə baş qoyaram!
Umduğum olmasan da, yenə doğmamsan, İlkin!
Özümsüzlüyümü damla-damla ağladığım
şeirimsən, İlkin,
şeirimsən!

**İlkin Şakiroğlu**

Tural Turan